**Bundan sonra Füzuli babasının silahlarının əldən çıxdığını gördüyündən, kustar üsulla əldəqayırma tüfənglər düzəltməyə başlayır. Bacısının sözlərinə görə, bu vaxtdan etibarən ermənilərin harda bir tikilisini görsə, gedib onu dağıdıb gəlirmiş. Bir sözlə, bu insanda vətənpərvərlik hissləri, namus, qeyrət təəssübü o dərəcədə güclü və tükənməz olub ki, onu bu yoldan nə həbsxana qorxusu, nə döyüş, nə yaralanmaq, hətta ölüm belə saxlaya bilmirmiş.**

# İgid ömrü

## *Anadangəlmə qəhrəman*



**(III yazı)**

### Bitib-tükənməyən Vətən sevgisi

Qarşıda döyüşçülərin, dostlarının dediklərini oxuyanda bunun əyani sübutlarının şahidlərinə çevriləcəksiniz. Hələliksə Fiqurə xanımla söhbətimizə davam edək.

**- Ermənilər sizinlə bərabər Xocalıda yaşamırdılar?**

- Xeyr, Xocalıda erməni yox idi. Ermənilər o ərazidə əvvəlcə ancaq Əsgəranda yaşayırdılar. Sonradan Həsənabad kəndini boşaltdılar, Həsənabada da yığıldılar.

**- Onda Füzuli ermənilərə divan tutmaq üçün başqa yaşayış məskənlərini seçirdi...**

- Əlbəttə. Məsələn, bizdən aralıda "Vosem-şestoy" deyilən yerdə ermənilər bir post qurmuşdular. Füzuli kəndlilərimizlə danışır ki, gedib o postu dağıdaq. Bunu onun dostları sizə daha yaxşı danışar. Nə isə. Gedib görürlər ki, bir budka qoyublar, o budkanı dağıdırlar, içində də nə varsa tökürlər çöllərə. Səs-küy düşüb, ermənilər də gəlib, o cümlədən bayaq dediyim rəis Ağacanyan da UAZ-la gəlib. Qardaşım da yaxşı idmançı idi, qaçış üzrə lap mahir idi. Girib şumluqla qaçıb ki, qoy mənim dalımca düşsünlər, uşaqları tuta bilməsinlər. UAZ-la onu tuta bilməmişdilər. Uşaqlardan ikisini tutmuşdular. Ondan sonra qardaşım dayanmışdı ki, onsuz da onlar məni satacaqlar. Əlində bıçaq var imiş, onlarsa əli tapançalı. Bununla belə, deyiblər əllərini qaldır, səni tutaq. Füzuli bıçağı da atıb demişdi hə, indi gəlin tutun. Yalnız bundan sonra qollarına qandal vurub aparmışdılar onu. Əsgəranda 7-8 gün o qədər döymüşdülər ki, bəlkə yoldaşlarının adını deyə. İnanın Allaha, o biri uşaqların heç birisini də satmamışdı. On beş gün Əsgəranda saxlayandan sonra Şuşaya göndərmişdilər. Şuşaya çatan kimi üz-gözü şişmiş, göyərmiş halda şəkil çəkdirmişdi. Demişdi ki, bu şəkli qoyun mənim şəxsi işimin içinə (təəssüf ki, Füzulinin nəinki üz-gözü şişmiş bu yaralı şəkli, bütün şəkilləri Xocalıda qalıb. Ona görə əldə olan, dostu Nazimin tapdığı yeganə şəklindən istifadə etməyə məcbur olublar bütün yazılarda, tədbirlərdə, hətta baş daşında da - N.Z. ).

**- Şuşada həbsdə yatırdı, yoxsa sadəcə istintaq üçün saxlanırdı?**

- Yox. İstintaq müddəti, həbsinə qədər Şuşada üç ay saxladılar. Biz də gedirdik yanına, yemək-filan aparırdıq. Şuşaya da getmək çətinləşmişdi o zamanlar. Bizi rus hərbçiləri müşayiət edirdi. Üç aydan sonra gətirdilər Əsgərana məhkəməyə. Biz də getdik. Hərbi məhkəmə aparırdı işi. Xalamla məni babamın bacısı oğlu apardı Əsgərana. Məhkəmədə ermənilər bir-bir gəlib keçirdi, bir söz soruşanda isə cavab verə bilmirdilər. Biz də sakitcə oturmuşuq. Nə isə, yığdılar bizi içəri. Zaminə altı ay iş verdilər. Gedib həbsxanada yatıb qayıtdı. Gələn kimi yenə də başladı ermənilərə qan uddurmağa.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı redaksiyası ilə "Bakı-Xəbər" qəzetinin birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz" seriyasından "İgid ömrü" adlı növbəti kitabı çapa hazırlayırıq. Kitab Azərbaycanın Milli Qəhrəmanı Füzuli Salah oğlu Rüstəmovun vətənpərvərlik nidalı həyat, döyüş, qəhrəmanlıq yollarından bəhs edir.

Ürəyi qardaş itkisindən yaralı Fiqurə xanımı dinləməkdə davam edirəm. Uşaqlıqdan atasız-anasız qalmış, büsbütün kimsəsizliyi on doqquz yaşında yaşamış Fiqurə xanım dərindən köks ötürərək söyləyir ki, Füzuli yaralananda Qurban adlı xocalılı bir oğlan camaata tərəf ağlaya-ağlaya gələrək ermənilərin orda bir nəfəri vurduğunu deyir. Camaatdan kimsə ona cavab olaraq deyir orda bir nəfəri yox, çox adamı vurublar. Fiqurə xanıma tam danışdığına inansaq, hadisə belə baş verir: deməli, Füzuli görüb ki, qonşularının atası yaralanıb. Cabbar adlı dostu, o, İsrail, başqa kimlərləsə birlikdə həmin əraziyə doğru irəliləyirl[illegible]ə qədər xocalılını, o cü[illegible]n dayısı oğlanları Əkbəri, Şükürü də Füzuli çıxarır mühasirədən. Fiqurə xanımın sözlərində bir inciklik notunu da hiss edirəm bu anda. Onun sözlərinə görə, Füzulinin xilas etdiyi bu adamlardan həmin qohumları indi özlərini daha "ağıllı" hesab edərək, hətta "ağlı olsaydı ölməzdi" deməkdən belə çəkinməyənlər var. Tarixin ironiyasına bir fikir verin, əziz oxucular!!! Təəssüf ki, ürəyim bulanmasın deyə, Fiqurə xanım bu insanlardan heç birini mənimlə həmsöhbət olmaq üçün əlaqələndirmək istəmədi. Amma belələrinə nə ad vermək olar?!.. Bunları düşündükcə əsəbiləşən Fiqurə müəllimə qəribə bir küskün qənaətini bölüşür bizimlə: "Düz deyirlər yəqin. Görünür, ağıllı onlar imiş ki, salamat gəlib çıxa biliblər". Şəhidin - Milli Qəhrəmanın yadigarını belə küskün duruma salanlara nə ad verək, sizcə əziz oxucular, əziz azərbaycanlılar?!..

Fiqurə xanımdan onu da öyrənirəm ki, orta məktəb müəllimlərini də bu qan-qadanın içərisindən sağ-salamat çıxarıb Füzuli: "Burda məktəbdə bizimlə işləyən müəllim var, onun anası müəllimə də orda olub. Müəllimə deyib ki, ay Füzuli, başın bəlalıdı, çıx get, Zamin cavab verib ki, "yox, gedə bilmərəm, arvad-uşağı girov aparırlar!". Ayrı bir arvad olub Gülarə adında, o, eləcə də neçə nəfər qocalar deyiblər ki, a bala, çıx get də niyə qayıdırsan təkrar-təkrar? Amma bütün bu təkidlərə baxmayaraq, Zamin yenə də qayıtmayıb, gedib yollara səpələnmiş xocalılara bələdçilik etmək üçün. Bu minvalla nə qədər uşaq, qoca, qız-gəlin, yaralı keçirib, yaralıların yaralarını sarıyıb. Gedib ki, yenə adamları çıxartsın, bu dəfə yaralanıb. Lap yolun sonuna yaxın yerdəymiş. Ermənilər onu qaralayıbmışlar. Orda güclü atışma da olmayıb (bu, Fiqurə xanımın dedikləridir. Qarşıda digər xocalıların dilindən eşidəcəksiniz ki, insanların çoxunu məhz Qaraqaya deyilən ərazidə güllələyiblər. Bu çalpaşıq fikirləri anlamaq mümkündür. Buna səbəb həmin dəhşətli Xocalı qətliamı gecəsində hamının xaotik şəkildə qurtuluşa can atmalarıdır yəqin. Hər halda, nizamsız müharibənin yöndəmsiz qaydalarının nəticəsidir ki, Xocalı qətliamından 28 il ötməsinə baxmayaraq, bax belə çalpaşıq fikirlər, yanaşmalar bu gün də baş alıb gedir. Müharibəni müharibə qaydasında etməməyin acı nəticələrindəndir bu fakt - N.Z.). Amma nəyin bahasına olursa-olsun, Füzulini vurub öldürüb sıradan çıxarmaq istəyirmişlər. Orda da cəmisi beş-altı erməni olub. Əgər bizimkilər özlərini cəmləyib vuruşsaymışlar, həmin erməniləri məhv edərmişlər. Ancaq panika hamısını qaçmağa vadar eləyib. Avtomatları da qatlayıb gətirib burda satıblar. Füzuligilsə, dediyim kimi, yaralıları, qocaları, qız-gəlini çıxarmaqla məşğul olublar. Onun ölüm səhnəsindən çıxardığı adamlarla görüşüb danışanda o müdhiş mənzərə sizə tamamilə aydınlaşacaq. Sizə bunları şahidlər danışacaq. O yolda nələr baş verib? Bir UAZ yaxınlaşıb bunlara. İçində də sonradan Ermənistan prezidenti olmuş Robert Köçəryan. Füzuli deyib ki, gəlin bu UAZ-ın içindəkiləri güllələyək, yoxsa bunlar bizim başımıza belə olacaqlar. Bir arvad gətirib yaylığını atıb onun ayağının altına ki, vurmasın. Sən demə, maşının içərisi rabitə cihazları ilə dolu imiş. O maşındakılar geriyə qayıdıb xeyli azərbaycanlını qətlə yetirib. Yəni demək istəyirəm ki, çoxu qorxusundan meşədə güllə atmayıb. Görünür, elə erməni bu əraziyə çatanda qarovulladığı bircə qardaşım olub ki, o ermənilərə atıb, onlar da qayıdıb ona atıblar. Bizimkilər cavab atəşi açmayıblar, ancaq birtəhər canlarını götürüb qaçmağa üstünlük veriblər. Ona görə də beş-altı erməni düşüb camaatı qırıblar meşədə..."



### Yaralı Füzuli xalasını soraqlayır - anası əvəzi Səkinəni...

**- Füzulinin yaralanandan sonrakı son anlarını danışın...**

- Hə, Cabbar paltosunu çıxarıb. Qoyublar paltonun arasına. Endiriblər aşağı. Maşın gedib qabağına, gətiriblər Ağdam xəstəxanasına. Yarasından çoxlu qanı daxilə axıb. Üstəlik əməliyyat olunmalı imiş. Onda da xəstə çox, yaralı çox, çatdıra bilməyiblər, bax beləcə dünyasını dəyişib. Xəstəxanada kim yaxınlaşırmışsa ona, çətinliklə danışsa da, hamısından xalamızı soruşurmuş. Bizim ana əvəzi xalamızı (ağlayır). Bunların dəstəsi kəsə yolu tanıyırmış, ora ilə gəlib, xalam isə qonşularımızla başqa yolu gəlib. Əminəvəsi, başqa qohumlarla birgə. Bunlar dik yuxarı qalxıblar meşə ilə Ağdamın Gülablı kəndinin üstündəki Kətik kəndinin yaxınlığına, bura da çox qorxulu yol idi, amma birtəhər Kətik kəndindən enib gəlib çıxıblar Ağdam ərazilərinə. O yolda o qədər adam şəhid olub ki (yenidən kövrəlir). Amma mənim qardaşımgil gecə saat 12-1 radələrində Xocalıdan çıxıblar, ikibir-üçbir qabaqda postları yoxlaya-yoxlaya geri qayıdıb vəziyyəti təhlil edə-edə camaatı kəsə yolla gətirib çatdırıblar. Füzuli hələ bir neçə gün əvvəl də Ağdama gedib qayıtmışdı. Hətta burda dişi ağrıyıb, dişini də çəkdiribmiş. Əlində çemodan qayıdanda erməniyə çuğulluq (bu sözləri eşidəndə vaxtilə yazdığım "Çuğul" hekayəmin prototipləri yadıma düşdü. Sən demə, çuğul müharibə şəraitində güllə qabağında da, düşmən qabağında da, namus-qeyrət tapdalananda da - hər bir yerdə elə çuğul imiş. Zamanında bu faktı bilsəydim öz hekayəmə çuğulların "beynəlmiləlliyini" də əlavə edərdim - N.Z. ) edənlər xəbərləyib onu satıblar, ermənilər də ona atəş açmışdılar. Qayıdıb gələndə babamın qohumu Əşrəf dayıya deyib ki, getdim-gəldim, ancaq ermənilər duyuq düşüb atəş açdılar mənə, az qala düşmüşdüm tələyə. İndi yolu dəyişməliyəm. Əşrəf dayı deyir, madam belədisə daha getmə. Füzuli deyir nə danışırsız, mən buranın bələdçisiyəm, getməyə bilmərəm. Təzədən ayrı yolla gedib-gəlməyə başlayıb. Ona görə bu yolu da tanıdığından qabaqda gedib yoxlayıb qayıdırmış ki, görsün post qurublarmı ermənilər hardasa.

**- Pay-piyada...**

- Bəli, pay-piyada. Xocalı qətliamından bir neçə gün əvvəl, Xocalının daha duruş gətirə bilməyəcəyi, mühasirəyə salındığı bilinən günlərdə xalama deyib ki, gedəndə pəyədə (tövlə - N.Z.) saxladıqları mal-qaranı, qoyunu qabaqlarına salıb aparsınlar ki, birdən yollar minalanmış olsa heyvanlar düşsün minaya, bilsinlər. Əgər yol təmizdisə və ya heyvanın ayağı dəydikcə təmizlənərsə, sonra qayıdıb gəlib arvad-uşağı da həmin cığırla kəndin ayaq tərəfindən çıxarıb aparaq.

*(Ardı 15-ci səh.)*

*(Əvvəli 14-cü səh.)*

Özünün də, qonşusunun da çoxlu mal-qarası var idi pəyədə. Ancaq xalam bunu məsləhət bilməyib. Deyib sənin ki bu camaata, Qarabağa bu qədər köməkliyin dəyib, mal-qaranın arxasınca gedib minaya düşərsən, deyərlər ki, Füzuli mal-qaranı satmağa aparırmış. Nə vaxt camaat çıxacaq, biz də durub gedəcəyik. O da xalamı eşidib...

**Partladılan aeroport, qaçqınlara peşkəş olunan ermənilərin Mehdikənd ferması...**

**- Neçə yaşı vardı bu zaman Füzulinin?**

- 26 yaşı vardı. İnanın, elə bir gecə olmazdı ki, gedib bir erməninin evini dağıtmasın. Başlarına oyun açırdı ermənilərin. Mehdikənddə ferma var idi. Gediblər həmin fermaya. Görüblər fermanın müdiri işçiləri yığıb başına tövlənin bir tərəfində onlarla nədənsə danışır. Bunları məhv edib fermadakı 200 baş malı qabaqlarına qatıb gətirmişdilər. Bizim də heç nədən xəbərimiz yoxdu. Malı gətirib doldurublar babamgilin pəyəsinə, qonşunun pəyəsinə, özünün yarıtıkili evinin altına. Səhər durmuşuq ki, bir mal mələrtisi var, dəhşət, gedib baxmışıq. Xalamı oyadıb ki, Xankəndidən gəlib fin evlərində yaşayan qaçqınlar acından qırılır, durun bu inəkləri sağın, südünü aparıb verək o qaçqınlara, onların balalarına. İndi fikir bizi götürüb ki, bu qədər mal-qaranı neyləyəcəyik? Füzuli dedi qatar boş vaqonlarla gəlir, bunları dolduraq içinə göndərək Ağdama.

Doldurub göndəriblər də sağmal heyvanları. Südü sağdırıb götürüb əlində aparıb fin evlərindəki qaçqınlara verib. Sonra gəlib malın içərisindəki cavan cöngələrdən, düyələrdən kəsib, aparıb əlində paylayıb o camaata. Onun sabahısı o fermada ölənlərin, mal-qaranın hayıfını çıxmaq üçün ermənilər Polyaniçkonun (Azərbaycan SSR Mərkəzi Komitəsinin ikinci katibi, Moskvanın Qarabağda xüsusi nümayəndəsi Polyaniçkodan söhbət gedir - N.Z.) sürücüsünün başını kəsdilər. Artıq yol bağlı idi. Ancaq Polyaniçkonun sürücüsü gedib-gəlirdi o yolu. Onu, xalasını, bir də bir ayrı xocalılı oğlanı öldürdülər. Sürücünü Ağdama çatdırsalar da, xilas etmək mümkün olmamışdı.

**- Xocalı aeroportunu partlatmasını necə xatırlayırsız?**

- Onun iştirakçısı İman adlı dostu var, sizi onunla əlaqələndirərəm, o daha yaxşı şahid kimi danışar sizə. Bu bir dəfə yazılır, hər saat yazılmır ki, qoy dəqiq və ətraflı olsun (qarşıda bu partlayışın təfərrüatlarını canlı şahid və partlayışın iştirakçısı olmuş İmanla söhbətimizdə dəqiq biləcəksiniz - N.Z.).

**- Təbii.**

- O, İman və Rövşən adlı oğlanlarla aeroportu partlatmağı planlaşdırır. Yığışıb məsləhətləşirlər. Füzuli deyir ki, bu işin öhdəsindən mən gələrəm. Deməli, Xocalı ilə aeroportun arası 3-4 kilometr olardı. Bu qədər yolu elektrik naqili çəkib oraya elektrik cərəyanı aparmışdılar. Oranı, çox güman ki, aminal-filan qoyub partladıblar. O zaman qranatomyot nə gəzirdi bizdə?! Elektriki çəkəndə yolu da xəndək atıb qazıblar ki, bununla səhərisi gün Xankəndidən uçmağa gələcək bir deputatın da gəlişinə mane ola bilsinlər. Deputatın gələcəyini Elman müəllim (o zaman Xocalının icra hakimiyyətinin başçısı, indi Xocalının deputatı - N.Z.) deyibmiş bunlara. O qədər yolu çəkib naqili, orda baxıb ki, partlamır, deməli naqil qoşulmayıb. Təzədən o boyda yolu qayıdıb gəlib görüb yox, qoşuludu. Ondan sonra axtarıb yolboyu naqilin qırılan nöqtəsini tapıb bərpa ediblər. Nəhayət aeroportu partladıblar. Təkcə bumu?!.. Sonra dəmiryolunu da partladıb. Stepanakertdə (Xankəndi) Darik-barikin heykəli vardı. Gedib onu partladıb. Bir gün gördüm ki, nə qədər gözəl-gözəl qələm-dəftəri gətirib hasarın dibində gizlədib. Deyirəm bu nədi? Dedi ki, Stepanakertdə bir budkanı dağıdıb gətirmişəm, ancaq evə aparmağa qorxuram, məni danlayacaqlar. Allaha and olsun, yadıma düşdükcə danışıram, bir də görürdün ki, camaatın mal-qarası adlayıb keçib ermənilər tərəfə, çoban özü gedib onu qaytarmağa ürək eləmirdi, Füzuli gedib gətirirdi. Bir dəfə çay daşmışdı. Mal-qara qalmışdı yenə ermənilər tərəfdə. Qonşunun atını alıb minir, çayı üzdürə-üzdürə keçir o biri tərəfə. Atın sahibi danışırdı ki, selin bərk axdığı yerdən keçəndə buna baxmağa ürək eləmədim, pencəyimi tutdum gözümün qabağına ki, görməyim heç olmasa. Amma keçib mal-qaranı haylayıb gətirdi. Bir gün də yenə mal keçib ermənilər tərəfə. Biz də dəmiryolunun üstündən baxırıq. Füzuli adladı ora. Ermənilər də orda ot çalırdılar. 5-6 erməni idi. Gördük ki, yaxınlaşdı onlara. Ürəyimizi yedik ki, bəlkə bu ermənilərin üstündə silah da var, bunu vurarlar. Getdi onlarla nə danışdısa, qayıtdı gəldi. Xalam bunu danladı ki, onlara niyə yaxınlaşmışdın? Dedi, ermənilər mənə istehza ilə dedilər ki, tork ("türk" deyə istehza edirmişlər - N.Z.) ayranımız var, ayran içərsən? Dedim ki, qorxmuram içərəm. Yaxınlaşdım aldım iki stəkan içdim. Xalam dedi, bəs demədin səni zəhərləyərlər? Dedi onlar nə bilirdi ki, mən ora gələcəm, qabaqcadan zəhər tədarükü görsünlər? Qayıdıb gəlsəydim, deyərdilər bizdən qorxdu.

Əsl həqiqətdə də ermənilər ondan çox qorxurdular. Bir il gedib onlar tərəfdə, meşədə ot çalmışdı. Gəldi dayım oğlanlarına dedi ki, gedək sizin yük maşınınızla o otu yükləyib gətirək. Onlar dedilər qorxuruq getməyə. İnanın ki, həmin otu atın belinə yükləyib hissə-hissə neçə dəfəyə daşıyıb gətirdi təkbaşına. Belə oğul idi Füzuli. Heç nədən çəkinməzdi. Bu da bir növ qandan-gendən gəlirdi. Mənim həm dediyim Kərim babam qoçaq adam kimi tanınırdı, həm də Naxçıvandakı babam. Naxçıvandakı babama da "quş Məhəmməd" deyirmişlər. Niyə belə deyirmişlər? O zamanlar maşın az olurmuş. Olanlar da hündür banlı maşınlar. Maşına əl qaldırırmış, saxlamadı, daha gözləmirmiş, hoppanıb şütüyən maşına minirmiş. Düşəndəsə özünü sürücüyə göstərmək üçün qabaqdan düşürmüş ki, yəni sən saxlamasan da mən minmişəm. Yəni bir daha demək istəyirəm ki, onun genində var idi bu əlamətlər. Bir dəfə yubileyində Elman müəllim dedi ki, Füzuliyə deməyə ehtiyac yox idi bunu elə, onu elə, ya bu işi belə elə, o özü hər şeyə hazır idi. O, anadangəlmə qəhrəman idi.

***Nəzirməmməd ZÖHRABLI***
***Jurnalist-publisist***